**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№298/4** **23 fevral 2018-ci il**

**Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qaydaya edilmiş dəyişikliklər barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya uyğun olaraq Auditin təşkili və kadr hazırlığı idarəsi tərəfindən daxil olmuş təklifləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"nın 5-ci "Xüsusi müddəalar" bölməsinə "5.2. Hər Palata Şurasının iclasında və "dəyirmi masa"da iştirak edən üzvə 10 bal, hər Palata Şurasının iclasında və "dəyirmi masa"da müzakirə üçün material hazırlayıb təqdim edən üzvə və ya auditora əlavə 40 bal hesablansın" yarım bəndi əlavə edilsin.
2. İl ərzində "Dəyirmi masa"nın işində 3 dəfədən artıq üzrsüz səbəbdən iştirak etməyən "Dəyirmi masa" üzvləri başqa üzvlərlə əvəz edilsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın mətninin Auditorlar Palatasının və "Dəyimi masa"nın üzvlərinə göndərilməsini təmin etsin.
4. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**